Putinin Ermənistana səfəri başlayıb

Yazan
02.12.13 21:00 -



Rusiya prezidenti Vladimir Putinin Ermənistana səfəri başlayıb.

Vladimir Putin səfər çərçivəsində Gümrüdə İstilik Elektrik Stansiyasının beşinci blokunun istismara verilməsi mərasiminə qatılacaq.

Prezidentin bu ölkədəki Rusiya hərbi bazasına baş çəkəcəyi də gözlənilir. Səfəri daha sonra İrəvanda davam etdirəcək prezidenti Serj Sarkisyanla birlikdə qondarma erməni soyqırımı abidəsini də ziyarət edəcək.

Putinin səfərinə hazırlıq çərçivəsində xüsusilə İrəvanda geniş təhlükəsizlik tədbirləri görülüb, bir çox küçə və prospektlərdə nəqliyyatın hərəkəti məhdudlaşdırılıb.